*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 20 fevral 2016-cı il № 13 (2028) Qiyməti 25 qəpik


# Gəncədə hərbi qulluqçular üçün inşa edilən şəhərciyin açılışı olub

***Fevralın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gəncədə hərbi qulluqçular üçün inşa edilən şəhərciyin açılışında iştirak edib.***



Azərbaycanda əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan nizami ordu quruculuğu siyasətini Prezident İlham Əliyev uğurla davam etdirir. İndi Azərbaycan Silahlı Qüvvələri dünyanın ən peşəkar və güclü ordularından birinə çevrilib. Milli Ordumuzun şəxsi heyətinin həyat şəraitinin yaxşılaşdırılması da diqqət mərkəzində saxlanır, bu istiqamətdə çox mühüm və ardıcıl tədbirlər həyata keçirilir. Bu sahədə daha bir mühüm addım atılıb. Gəncə şəhərində hərbi qulluqçular üçün şəhərcik inşa olunub. Bütün lazımi şəraitlə təmin edilmiş belə müasir şəhərciyin salınması hərbi qulluqçuların mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına yönəlməklə yanaşı, ordumuzun qüdrətinin artmasına da mühüm təsir göstərir.

**(Ardı 2-ci səhifədə)**

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Birinci addım torpaqların işğaldan azad edilməsidir

***Vətənimizin ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağın Ermənistanın işğalından azad edilməsi Azərbaycan rəhbərliyinin ən çox önəm verdiyi strateji və dövlət əhəmiyyətli məsələlərdəndir. Bu qəsbkarlığın acı nəticələrindən, Ermənistanın ölkəmizə qarşı aqressiv siyasətindən Azərbaycan xalqı illərdir əziyyət çəkməkdədir. Bütövlükdə Cənubi Qafqazın inkişafına böyük maneələr yaradan Dağlıq Qarabağ probleminin tarixi gerçəkliklər nəzərə alınmaqla ədalətli həlli məsələsini Prezident İlham Əliyev bütün mötəbər tədbirlərdə qaldırmaqdadır.***

Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Münxen Təhlükəsizlik Konfransında da Dağlıq Qarabağın və ətraf rayonların işğalından sonra Ermənistanın bölgədə yaratdığı ekoloji problemlərə diqqəti cəlb edib.

"İqlim və enerji təhlükəsizliyi. İstiləşmə hələ də davam edirmi?" mövzusunda keçirilən panel-müzakirədə aparıcının suallarını cavablandırarkən Prezident İlham Əliyev Azərbaycanın 20 ildən artıqdır ki, təcavüz və işğaldan əziyyət çəkdiyinə diqqəti yönəldərək dedi: "Bizim üçün əsas təhlükə ondan ibarətdir ki, bizi su ilə təchiz edən əsas çaylarımız mənbəyini qonşu ölkələrdən götürür və xüsusilə Ermənistanda Araz çayının çox ciddi çirklənməsi müşahidə olunur. Bu da bizim hamımız üçün təhlükədir. Çayın çirklənməsinin dayandırılması ilə bağlı etdiyimiz bütün müraciətlərimizə baxmayaraq, əfsuslar olsun ki, Ermənistan bu siyasəti davam etdirir".

Məlum olduğu kimi, Sərsəng su anbarı Sovet dövründə Azərbaycan rəhbərliyi tərəfindən, öz vəsaitimiz hesabına Dağlıq Qarabağda inşa edilib. Ancaq bu gün Ermənistan rəhbərliyi həmin su anbarından mülki əhaliyə problemlər törətmək üçün istifadə edir. Bununla heç cür barışmaq mümkün deyil.

Dövlətimizin başçısı bu yaxınlarda Avropa Şurasının Parlament Assambleyası tərəfindən haqlı olaraq qonşu regionlara suyun təchizatında problem törətməsinə görə Ermənistanı pisləyən qətnamə qəbul edildiyini bir daha müzakirə iştirakçılarının nəzərinə çatdırıb.

**(Ardı 2-ci səhifədə)**



Silahlı Qüvvələrdə yeni tədris dövrü davam edir

3-cü səhifədə



"Məqsəd Vətənə daha gərəkli olmaqdır"

4-cü səhifədə



Dağlarla çiyin-çiyinə

5-ci səhifədə



Əsas vəzifə döyüşçü kimi yetişməkdir

5-ci səhifədə

AZƏRBAYCAN ORDUSU

# Gəncədə hərbi qulluqçular üçün inşa edilən şəhərciyin açılışı olub





(Əvvəli 1-ci səhifədə)

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısına məlumat verildi ki, yaşayış kompleksi 14 çoxmənzilli binadan ibarətdir. Kompleks şəhərin Yeni Gəncə yaşayış massivində 2-ci mikrorayonda yaradılıb. Doqquzmərtəbəli binalardan ibarət kompleksdə ümumilikdə 696 mənzil var. Onların 48-i birotaqlı, 224-ü ikiotaqlı, 312-si üçotaqlı, 112-si isə dördotaqlıdır. Mənzillər su, işıq, qaz və kombi istilik sistemi ilə təmin olunub. Kompleksin ərazisində yaşıllaşdırma və abadlıq işləri ilə yanaşı, sakinlərin asudə vaxtlarını səmərəli keçirmələri üçün hərtərəfli şərait yaradılıb. Uşaq əyləncə və idman meydançası salınıb. Yaşayış kompleksinə gedən "28 May" prospekti yenidən qurulub, işıq dirəkləri təzələnib.

Prezident İlham Əliyev mənzillərdə yaradılmış şəraitlə tanış oldu.

Azərbaycan Prezidenti əvvəlcə polkovnik-leytenant Həziyevin mənzilinə baxdı. Ailə üzvlərini təbrik edən Prezident İlham Əliyev dedi: “Sizi təbrik edirəm. Böyük şəhərcik yaradılıb. İndi hərbçilər öz ailələri ilə bu şəhərcikdə yaşayacaqlar. Dövlət hərbçilərə belə gözəl qayğı göstərir. Gözəl evlər tikilir. İndi orduda 20 il qüsursuz xidmət etmiş 750 hərbçi artıq dövlət tərəfindən pulsuz mənzillə təmin olunub.

Bu proses davam etdirilir. Hər il hərbçilərə dövlət tərəfindən mənzillər veriləcək ki, onlar özlərini yaxşı hiss etsinlər, ailələri yaxşı şəraitdə yaşasınlar, belə gözəl övladlar böyütsünlər və ordumuz üçün yeni kadrlar yetişdirsinlər. Gənclər də görəndə ki, hərbçilərə, xüsusilə hərbi xidmətdə fərqlənmiş insanlara dövlət tərəfindən belə yüksək qiymət verilir, onlar da bu işlərə daha böyük həvəslə qoşulacaqlar. Beləliklə, bizim çox gözəl gənc kadrlarımız yetişəcək. Sizi bir daha təbrik edirəm, sizə cansağlığı arzulayıram”.



Polkovnik-leytenant Həziyev: “Çox sağ olun, cənab Ali Baş Komandan. Biz də öz ailəmiz adından, bütün hərbi qulluqçularımız adından Sizə minnətdarlığımızı bildiririk. Bu gün bizim sevincimizə Siz də şərik oldunuz, gəldiniz. Bizim üçün bundan böyük xoşbəxtlik ola bilməz”.

Prezident İlham Əliyev: “Sağ olun”.

* * *

Sonra dövlətimizin başçısı polkovnik-leytenant Hüseynovun mənzilində oldu, onu və ailə üzvlərini təbrik etdi.

Sonda xatirə şəkilləri çəkdirildi.

**AZƏRTAC**

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Birinci addım torpaqların işğaldan azad edilməsidir

(Əvvəli 1-ci səhifədə)

Ermənistanın yaratdığı ekoloji problemlər təkcə bununla bitmir. Ölkə rəhbərinin qeyd etdiyi kimi, xüsusilə meşələrin qırılması baş verir. "Çünki bu ərazilər öz qədim ağac və meşələri ilə çox məşhurdur. İndi isə bu meşələr kommersiya məqsədləri üçün kəsilir".

Ermənistan Xarici İşlər Nazirliyinin əməkdaşı tərəfindən verilmiş suala Prezident İlham Əliyevin cavabı yetərincə sərt oldu: "Biz Ermənistanı işğala görə günahlandırırıq və bunu təkcə biz etmirik. Bunu ən ali beynəlxalq qurum olan BMT Təhlükəsizlik Şurası da edir. BMT Təhlükəsizlik Şurası erməni qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul etmişdir. Biz Ermənistan xalqını yox, Ermənistan hökumətini yalnız azərbaycanlı olduqlarına görə günahsız insanların erməni vandalları tərəfindən qətlə yetirildiyi Xocalı soyqırımına görə günahlandırırıq və bu soyqırımı 10-dan artıq ölkə tərəfindən tanınır. Biz Ermənistanı öz doğma torpaqlarında qaçqına çevrilmiş bir milyon qaçqın və məcburi köçkünlərimizin iztirabına görə günahlandırırıq".

Təbii ki, Azərbaycan torpaqlarının işğalı ilə əlaqədar yaratdığı çoxsaylı problemlərə görə bugünkü Ermənistan rəhbərliyinə qarşı sərt mövqeyi dövlətimizin bölgədə əməkdaşlığın əleyhinə olması anlamını doğura bilməz. Ona görə ki, Azərbaycan bütün regional dövlətlərlə sıx iqtisadi, siyasi və mədəni əlaqələrə malikdir. Təcavüzkarlıq siyasətinə son qoyduğu halda respublikamız Ermənistanla da əməkdaşlığın əleyhinə deyil. Dövlət başçısının panelmüzakirədə səsləndirdiyi fikirlər birmənalı və ədalətlidir: "Ermənistan və Azərbaycan arasında əməkdaşlığın qurulması üçün torpaqların işğaldan azad edilməsi prosesinə başlanılmalıdır. Etimadın artırılması üçün ən yaxşı yol torpaqların işğaldan azad olunmasına başlamaqdır. Çünki təkcə tarixən əzəli Azərbaycan torpağı olan Dağlıq Qarabağ yox, 7 ətraf rayon da tamamilə məhv edilib. İşğal 20 ildən artıqdır ki, davam edir.

Ermənistan status-kvonun dəyişilməz olaraq qalmasını istəyir. Biz isə status-kvonu dəyişmək istəyirik. Beləliklə, birinci addım torpaqların işğaldan azad edilməsidir, sonra isə biz əməkdaşlığa başlayacağıq".

Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan torpaqlarının dinc yolla qaytarılması mümkün olmadığı və sülh danışıqları heç bir nəticə vermədiyi halda ölkəmizin ərazi bütövlüyünü digər vasitələrlə bərpa etməkdən başqa yolu qalmır. Dövlətimizin başçısı bu barədə qəti mövqeyini dəfələrlə müxtəlif tribunalardan səsləndirib və Minsk Qrupunun həmsədrlərinə də bəyan edib. Bu məqsədlə qarşısında dayanan taleyüklü vəzifələri yerinə yetirməyə qadir olması üçün Silahlı Qüvvələrimizin gücləndirilməsi naminə Azərbaycan rəhbərliyi bütün lazımi tədbirləri görür. Cəbhə bölgəsində düşmənin silahlı birləşmələri üzərində ordumuzun üstünlük qazanması bu məqsədin qətiliyini bir daha sübut edir.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov da Silahlı Qüvvələrimizin şəxsi heyəti qarşısında çıxışlarında daim qeyd edib ki, dövlətimiz və xalqımız tərəfindən ordu quruculuğunun inkişaf etdirilməsinə göstərilən diqqət və qayğıya cavab olaraq hərbi qulluqçularımız mühüm bir vəzifəni - torpaqlarımızın son qarışına kimi işğaldan azad edilməsi vəzifəsini yerinə yetirməyə bir nəfər kimi hazırdırlar.

**"Azərbaycan Ordusu"**

# Azərbaycan Respublikasının Müdafiə naziri Türkiyə tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyənin Ankara şəhərində törədilmiş xain terror aktı nəticəsində həlak olanlarla bağlı Türkiyə Respublikasının Milli Müdafiə naziri cənab İsmət Yılmaza və qardaş respublikanın Baş Qərargah rəisi ordu generalı Hulusi Akara başsağlığı məktubları ünvanlayıb.

Məktublarda bildirilir: "Qardaş Türkiyə Respublikasının Ankara şəhərində törədilmiş xain terror aktı nəticəsində çoxlu sayda hərbi qulluqçunun və mülki şəxslərin həlak olması və xəsarət alması haqqında xəbər məni dərindən kədərləndirdi.

Biz bu dəhşətli hadisədən çox hiddətlənir, terrorizmi qətiyyətlə pisləyir və ən kəskin şəkildə terrora qarşı mübarizə aparırıq.

Həlak olanlara rəhmət diləyir, onların yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verirəm. Xəsarət alanlara isə Tanrıdan şəfa diləyirəm".

# Silahlı Qüvvələrdə yeni tədris dövrü davam edir

***Silahlı Qüvvələrdə uğurla başlayan yeni tədris ili birlik, birləşmə, hərbi hissə, xüsusi təyinatlı hərbi təhsil müəssisələri və idarəetmə orqanlarının bütün şəxsi heyətini əhatə edib.***



Ali Baş Komandanın tələblərinə, Müdafiə nazirinin əmr və sərəncamlarına uyğun olaraq, Silahlı Qüvvələr qarşısında qoyulan tapşırıqlar quruda, dənizdə, səmada real təhdid və risklərin qarşısının alınmasının təmin olunması məqsədini daşıyır.

Maddi-texniki bazanın gücləndirilməsi, əsaslı planlaşdırma və digər təşkilati məsələlər yeni tədris ilində döyüş hazırlığının daha intensiv və məzmunlu aparılmasına imkan yaradıb.

Müdafiə nazirinin göstərişi ilə əsas diqqət şəxsi heyət tərəfindən müasir döyüş texnikası, silah-sursat və digər hərbi vasitələrin müxtəlif iqlim və çətin relyef şəraitində düzgün istifadə və tətbiq edilməsi bacarıqlarının artırılmasına yönəldilib.



Müxtəlif kateqoriyalı komandirlər qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün plana uyğun və ardıcıl surətdə silahlardan istifadə olunması, qoşunların idarəedilməsi effektivliyinin yüksəldilməsi, qarşılıqlı uzlaşmanın gücləndirilməsi, döyüş növbətçiliyinin daha keyfiyyətli təşkili və digər istiqamətlər üzrə vərdişləri təkmilləşdirirlər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Hərbi hissələrdə döyüşə hazırlıq məşqləri keçirilir





***Müdafiə Nazirliyinin tabeliyində olan birlik, birləşmə və hərbi hissələrin döyüşə hazırlıq vəziyyətinə gətirilmə planına əsasən, kompleks məşqlər keçirilir və şəxsi heyətin funksional vəzifələrini icraetmə bacarıqları yoxlanılır.***

Məşqlərdə bölmələrin və heyətlərin döyüş tapşırıqlarını yerinə yetirmə bacarıqları, eləcə də müxtəlif səviyyələrdən olan komandirlərin tabeliklə olanları idarəetmə vərdişləri təkmilləşdirilir.

Əsas diqqət xəbərdaretmə siqnalları ilə fəaliyyətlərin icrası, məxfilik rejiminə əməl edilməsi ilə məlumatların çatdırılması, silah-sursatın verilmə qaydası, şəxsi heyətin toplanış məntəqələrinə və döyüş təyinatı rayonlarına gizli, maskalanmanın tələblərinə riayət etməklə irəliləməsi, hərbi texnikanın döyüşdə tətbiq olunması məqsədilə çıxışa hazırlanması və digər sualların praktiki məşq etdirilməsinə yönəldilir.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Hərbi həkimlər ABŞ-da keçirilən konfransda iştirak ediblər

***Müdafiə Nazirliyinin Tibb Baş İdarəsinin zabitləri ABŞ-ın Arlinqton şəhərində keçirilən Amerika mikrobiologiya elmi cəmiyyətinin (ASM) biomüdafiə məsələlərinə və yeni yoluxucu xəstəliklərin tədqiqatına dair illik konfransında iştirak ediblər.***

Konfransda Azərbaycanla yanaşı, 50-dən çox - ABŞ, Böyük Britaniya, Almaniya, Fransa, İspaniya, Belçika, Hindistan, Koreya Respublikası, Qazaxıstan, Ukrayna, Özbəkistan, Gürcüstan və s. ölkələrdən olan nümayəndə heyətləri iştirak ediblər.

Müdafiə Nazirliyinin Tibb Baş İdarəsinin nümayəndələri tibb xidməti mayorları Surxay Məmmədov və Namiq Hüseynovun iştirak etdikləri konfransda biotəhlükəsizlik məsələlərinə, eləcə də tibbə yeni məlum olan xəstəliklərə dair tədqiqatların nəticələrinə dair ətraflı müzakirələr aparılıb.

Hazırda dünyada artan bioterrorizm təhlükəsi ilə əlaqədar biomüdafiə və biotəhlükəsizlik məsələləri sahəsində perspektiv istiqamətlərin müəyyənləşdirilməsinə dair konfransda məruzələr dinlənilib, müxtəlif mütəxəssis və ekspertlər bəşəriyyətin Ebola, Lassa, Marburq, Zika virusları kimi qlobal bioloji təhlükədən qorunması yolları ilə bağlı fikirlərini bölüşüblər.

Bundan əlavə, bakterioloji (bioloji) silahın tətbiqi imkanları, bəşəriyyətin bu bəladan qorunması, ümumiyyətlə, bioloji silah kimi istifadə olunması ehtimal edilən patogenlərin dünyada yayılma arealı müzakirə olunub. Alimlərin apardıqları bir sıra tədqiqatların nəticələri nümayiş edilib, epidemioloqlar, mikrobioloqlar və infeksionistlər isə təcrübələri ilə bölüşüblər.

Konfrans çərçivəsində ölkəmizi təmsil edən nümayəndələr bir çox mütəxəssislərlə görüşlər keçirib, naməlum mənşəli qızdırmalı xəstəliklərin diaqnostikası, müalicəsi və profilaktikası barədə fikir mübadiləsi apardılar.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Təmas xəttində monitorinq keçirilib

***ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, fevralın 18-də Tərtər rayonu ərazisindəki qoşunların təmas xəttində monitorinq keçirilib.***

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, monitorinqi Azərbaycan tərəfdən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik və onun səhra köməkçisi Jiri Aberle keçiriblər.

Təmas xəttinin qarşı tərəfində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Yevgeni Şarov, Xristo Xristov və Peter Svedberq keçiriblər.

AZƏRBAYCAN ORDUSU

General-polkovnik Zakir HƏSƏNOV:

*Hər bir Azərbaycan zabiti Vətənə, xalqa və dövlətə xidməti ömrünün mənası hesab etməli, daim bu amalla yaşamalı və mübarizə aparmalıdır.*

*Gənc zabitlərimiz*

# "Məqsəd Vətənə daha gərəkli olmaqdır"

***Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Müdafiə naziri general-polkovnik Zakir Həsənovun gənc zabitlərlə, ali hərbi məktəblərimizin sonuncu kursunda oxuyan kursantlarla görüşü keçirilirdi. Həmin tədbirdə Müdafiə naziri çıxışına vaxtilə kursant olduğu dövrün xatirələri ilə başladı. "Bir vaxtlar sizin kimi kursant olmuşam. Hərbi peşəyə güclü marağım vardı, dərslərdə və təlimlərdə daim öyrənməyə, vərdişlərimi artırmağa səy göstərirdim. Çəkdiyim zəhmət isə hədər getmədi. Gördüyünüz kimi, dövlətimiz tərəfindən mənə yüksək etimad göstərilib və böyük bir məsuliyyətli vəzifə etibar olunub..."***

Bir anlığa zalda əyləşən kursantlara - gələcəyin zabitlərinə diqqət edirəm. Hamı sakitcə, bəlkə də, gözünü qırpmadan nazirə diqqət kəsilmişdi. Elə zənn etdim ki, hər bir kursant da onun kimi gələcəyin generalı, yüksək vəzifə sahibi olacağını düşünürdü. Müdafiə naziri isə çıxışına davam edirdi. Səmimi duyğularını, dəyərli tövsiyələrini və arzularını bölüşürdü. Yaxşı yadımdadır, nazir çıxışını bu sözlərlə bitirmişdi:

- Hər bir Azərbaycan zabiti Vətənə, xalqa və dövlətə xidməti ömrünün mənası hesab etməli, daim bu amalla yaşamalı və mübarizə aparmalıdır.

Bəli, bu sözlər zalda əyləşən gənclərə bir mesaj, onları ordu sıralarında mətinliklə xidmət etməyə ruhlandıran bir çağırış idi.



Artıq ötənilki buraxılışın məzunları Silahlı Qüvvələrimizin müxtəlif hərbi hissələrində, qoşun növlərində xidmətə başlayıblar. Bu yaxınlarda hava hücumundan müdafiə təyinatlı hərbi hissələrimizin birində gənc zabitlərin bir qrupu ilə görüşüb onların ürək sözlərini, düşüncələrini, arzularını qələmə aldım.

**Leytenant İsmayıl Kərimov:**

-1994-cü ildə Bakı şəhərində anadan olmuşam. Erkən yaşlarımda hərbə marağım yaranıb, həmişə ətrafımda səliqəli formada, şux qamətli gənc zabitləri görəndə onlara həsəd aparardım və üreyimdə hərbçi olmaq hissi baş qaldırardı. Beləcə, tanınmış sərkərdəmiz Cəmşid Naxçıvanskinin adını daşıyan Hərbi Liseyə qəbul olundum. Onda 13 yaşım vardı və artıq qərarım qəti idi: "Mən zabit olacam". Sonradan təhsilimi ulu öndər Heydər Əliyevin adını daşıyan Azərbaycan Ali Hərbi Məktəbində davam etdirdim. Mənə diplom və leytenant rütbəsinin təqdim olunduğu günü ömrümün ən mənalı məqamı hesab edirəm. Kursant olduğum dövrdə dəfələrlə hərbi hissələrdə təcrübə keçmişik, təlimlərdə olmuşuq. Harada bacarıqlı, vətənpərvər zabitlə qarşılaşmışamsa, onu özümə nümunə seçmişəm. Vətənimizə layiqli zabit olmaq və ordumuzun döyüş qabiliyyətinin gücləndirilməsinə töhfə vermək əsas amalımdır.

**Leytenant Murad Əliyev:**

- Mən də İsmayıl kimi hərbçi olmağı uşaqlıqdan arzulamışam. Bir çox ailələr kimi, bizim nəslimizdə də Qarabağ müharibəsinin ağrı-acıları hiss edilir. Əmim Nicat Əliyev Azərbaycan Ordusunun ilk döyüşçülərindən olub, 1992-ci ildə ağır döyüşlərin birində həlak olaraq şəhidlik zirvəsinə yüksəlib. Onun kimi yüzlərlə, minlərlə şəhidimizin göylərdə dolaşan ruhlarını əziz tutmaq üçün gərək torpaqlarımızı tezliklə yağılardan xilas edək, əzəli yurd yerlərimizdə bayram tonqallarını yandıraq. Yaxşı bilirəm ki, əsgərlərin döyüş vərdişlərinə yiyələnməsində, hər bir əsgərin Vətənin hazırlıqlı döyüşçüsü kimi formalaşmasında zabitlərin rolu böyükdür. Zabit bacarıqlı, savadlı olmalıdır ki, tabeliyində olan kollektivdə nüfuz qazanmağa müvəffəq olsun. Müdafiə nazirimiz çıxışlarının birində qeyd edib ki, əsl komandir mənəvi keyfiyyətləri, liderlik xüsusiyyəti ilə şəxsi nümunə olmalıdır. Bu sözlər məni də gələcəyin komandiri olmağa ruhlandırır. Söz vermişəm ki, öz üzərimdə səylə çalışmaqla, nümunəvi zabitlərdən təcrübə toplamaqla sabahın layiqli komandirlərindən biri olacağam.

**Leytenant Allahverdi Səfərov:**

- Sərhəd bölgəsində doğulub boya başa çatmışam və böyüdükcə zabit olmağa həvəsim artıb. Bir gün fikrimi valideynlərimə bildirəndə tərəddüd etmədən xeyir-dua verdilər və sənədlərimi Heydər Əliyev adına Hərbi Liseyə təqdim etdim. İlk sınaqdan uğurla çıxdım. Həyatımda ümummilli liderimizi özümə örnək seçmişəm, onun kimi xalqımı sevməyi, Vətənimə xidmət etməyi ömrümün mənası bilirəm. Ulu öndərimiz gənc nəslə tövsiyələrində zabit peşəsinin nə qədər müqəddəs və şərəfli olduğunu bildirib. Bu çətin, lakin şərəfli peşəni seçməkdə də məqsədim Vətənimizə daha gərəkli olmaqdır. Bizim gəncliyin qarşısında məsuliyyətli bir vəzifə dayanır: ölkəmizin ərazi bütövlüyü uğrunda haqq mübarizəsinə hazır olmaq. Tabeliyimizdə olan hər bir əsgəri də bu vəzifənin yerinə yetirilməsinə ruhlandırmaq əsas vəzifəmizdir.

*Yenicə ordu sıralarında xidmətə başlayan gənc zabitlərimizlə yaxından tanışlıq ürəyimdən oldu. Gənclərin yüksək mənəvi dəyərlərə malik olmaları, dərin mühakimə qabiliyyəti, intellektual səviyyəsi belə qənaət yaradır ki, həqiqətən də, hərbi peşəni öz ürəklərinin istəyi ilə seçiblər. Bu amil isə, şübhəsiz, hər birinin uğurlu gələcəyinə etibarlı zəmindir.*

**Polkovnik-leytenant
Arif PƏNAHOV,
"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***19 fevral 2016-cı il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 129 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə, Berkaber, Paravakar kəndlərində yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Qızılhacılı kəndində, Ağstafa rayonunun Köhnəqışlaq kəndində, Berd rayonunun Çinari, Mosesqex kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi, Ağdam kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Gülüstan, Tərtər rayonunun Göyarx, Çiləbürt, Çaylı, Yarımca, Ağdam rayonunun Şıxlar, Cəvahirli, Sarıcalı, Kəngərli, Novruzlu, Şuraabad, Nəmirli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 131 dəfə atəş zərbəsi endirib.

*Əsgərin tribunası*

# "Təlimlər döyüş təcrübəmizi artırır"

***Xidmətə gəldiyim beş aydan çoxdur. Mənim üçün hər günün öz əhəmiyyəti, öz dəyəri var. Təbiidir ki, yeniliksiz yaşamaq olmur. Xidmətdə keçən hər günümüz yaddaqalan olur. Məşqlər, təlimlər və dərslər bizi uğurlara aparır.***



Payız günlərində ordu sıralarına çağırılanda artıq özümü əsgər kimi hiss edirdim. Xidmətə də bu ovqatla yollandım. Bir neçə ay "N" hərbi hissəsində xidmət etdim. Bu müddət ərzində hərbi biliklərə və döyüş vərdişlərinə yiyələndim. Təcrübəli zabitlər məşğələ prosesində gənc əsgərlərə hərbi bilikləri aşılayır, döyüş vərdişlərini öyrədirdilər. Dərs və təlim keçmək üçün hərbi hissədə hərtərəfli şərait var idi. Ona görə də dərslər çox səmərəli keçirdi. Mən minaatan silahının sirlərini öyrənirdim. Əvvəllər bu silahı müharibədən bəhs edən filmlərdə görmüşdüm. Təsadüf elə gətirdi ki, mən də minaatan silahı öyrənməli oldum.

Təlim kursu başa çatandan sonra sınaq atışları keçirildi. Sınaqlarda ötən müddət ərzində öyrəndiyim bilikləri, mənimsədiyim döyüş vərdişlərini ortalığa qoyub yüksək peşəkarlıq nümayiş etdirdim. Peşəkarlığımız yüksək olduğuna görə sınaqlardan uğurla keçdik. Sübut etdik ki, qısa vaxtda lazımi hərbi biliklərə yiyələnərək müasir döyüş vərdişlərinə sahib olmuşuq. Qazanılan bütün vərdişlər xidmət zamanı əsgərə mütləq gərək olur. Ona görə də bu gün ordu sıralarında ilk addımlarını atan əsgərlərə məsləhət görərdim ki, döyüş vərdişlərinə dərindən yiyələnsinlər. Çünki uğur qazanmaq üçün hazırlığın yüksək olmalıdır. Öyrəndiklərimə görə komandirlərim olan təcrübəli zabitlərə minnətdaram.

Bu gün xidmətimi cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsində yerinə yetirirəm. Bu yerlərin hər dərəsi, hər təpəsi mənə doğmadır. Əsgər kimi üzərimə düşən bütün tapşırıqların öhdəsindən bacarıqla gəlməyə çalışıram. Vətənə xidmət etmək hər birimizin müqəddəs borcudur. Yurdumuzu qorumaq üçün hər bir döyüşə, savaşa hazır olmalıyıq.

**Əsgər
Nail CALALOV,
"N" hərbi hissəsi**

*Nümunəvi xidmət*

# Əsas vəzifə döyüşçü kimi yetişməkdir

***Hava hücumundan müdafiə təyinatlı "N" hərbi hissəsində ezamiyyətdə olanda şəxsi heyətlə iş üzrə komandir müavini mayor Şamo Rəsulovla söhbətləşdim. O, kollektivin qarşısında dayanan mühüm döyüş tapşırığının ölkəmizin hava sərhədlərinin qorunması olduğunu qeyd etdi.***



"Operator, planşetçi, rabitəçi və s. döyüş vəzifələrinə təyin edilmiş gənclər yalnız yüksək hazırlığa yiyələndikdən sonra döyüş heyətinə qəbul edilirlər. Müdafiə naziri general-polkovnik Zakir Həsənov bir vəzifə olaraq tövsiyə edib ki, ordunun yüksək döyüş qabiliyyətini təmin etmək üçün əsgərlərin hazırlığına ciddi diqqət yetirməliyik. Əsgərlərlə keçirdiyimiz məşğələlərdə ölkəmizin hazırkı geosiyasi vəziyyətini izah edir, onlara Vətənə, xalqa və dövlətə xidmətin müqəddəsliyini aşılayırıq. Nazirimizin dediyi "Ən etibarlı silah yaxşı öyrədilmiş əsgərdir" sözləri isə yaddaşımıza əbədi həkk olunub. Ona görə də bizə etibar edilən hərbi vəzifələri layiqincə yerinə yetirmək üçün əsgərlərin hazırlığını yüksəltməyə çalışmalıyıq".

Nümunəvi əsgərlərdən yazı hazırlamaq istədiyimi bildirəndə müsahibim Pərviz Əhmədovu misal çəkdi. Zabitin etimad göstərdiyi əsgərlə tanış olub söhbətləşmək qərarına gəldim.

Pərviz Bakı şəhərinin Nizami rayonundan hərbi xidmətə çağırılıb. Ali təhsillidir. İdarəetmə manqasında planşetçi vəzifəsindədir. Xidmətdə az bir müddət ərzində komandir və yoldaşlarının hörmətini qazanıb.

- Ordu həyatı gənclər üçün bir həyat məktəbidir, - söyləyir əsgər. - Bu həyat bizi bərkəboşa salır, fiziki, mənəvi-psixoloji cəhətdən möhkəmləndirir, mətinləşdirir, həyatın çətinlikləri ilə ayaqlaşmağı öyrədir. Buna görə də haqlı deyirlər ki, hərbi xidmət bir kişilik məktəbidir. İlk dəfə əsgər formasını geyinəndə daxilimdə böyük qürur, məsuliyyət hissi yarandı. Zabitlər əvvəlcə bizə sıra hazırlığı məşğələləri keçirdilər. Sonra döyüş vərdişləri və hərbi biliklərə mükəmməl yiyələnməmiz üçün diqqət və qayğılarını bızdən əsirgəmədilər. Dərs və məşğələlərimiz səmərəli keçdiyindən planşetçi peşəsinin sirlərini dərindən öyrəndim. Vəzifəmin öhdəsindən hazırda layiqincə gəlməyə çalışıram. Düzünü desəm, komandirlərimin etimadını qazanmaq, təşəkkürnamə almaq mənim özümə də könül xoşluğu verir. Söz vermişəm ki, valideynlərimin, doğmalarımın yanına alnıaçıq, başıuca qayıdacağam.

Özümə də maraqlı gələn bir sualla əsgərə müraciət edirəm. "Hərbi xidmətdən ən yaddaqalan günün hansı tarix olub?"

Hərbi andı qəbul etdiyi günü yaşadığı həyatın ən yadda qalan hadisəsi adlandıran əsgər deyir ki, Vətənə, torpağa, millətə sevgi, sədaqət insanın daxilində olan bir hissdir.

Pərviz doğru deyir, əgər bu hiss sənin daxilində yaranmayıbsa, o zaman Vətənini, torpağını, valideynlərini sevə bilməzsən. Hər bir insan bunu əməlləri ilə, gördüyü işlərlə sübut etməlidir.

Hərbi hissədən xoş təəssüratlarla ayrıldım. Dərindən hiss etdim ki, Azərbaycan gəncliyinin qarşısında duran ən vacib məsələlərdən biri məhz orduda xidmət etmək, Vətənimizi qorumağa qadir olan döyüşçü kimi yetişməkdir.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# Xocalı soyqırımının ildönümü Silahlı Qüvvələrdə keçiriləcək silsilə tədbirlərdə anılacaq

***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Silahlı Qüvvələrdə Xocalı soyqırımının 24-cü ildönümü ilə əlaqədar silsilə tədbirlər keçirilir.***

Təsdiq edilmiş plana əsasən, tədbirlər bir sıra şəhər və rayonları, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı hərbi təhsil müəssisələrini, mərkəzi və qarnizon zabitlər evlərini, klub və kitabxanaları əhatə edir.

İctimai-siyasi hazırlıq dərslərində "26 Fevral - Xocalı soyqırımı" mövzusunda tədbirlərin təşkili, ilk dərslərin qanlı hadisəyə həsr edilməsi, konfrans və "dəyirmi masa"ların, ədəbi-bədii gecələrin, sərgilərin, faciə qurbanlarının ailə üzvləri ilə görüşlərin keçirilməsi, milli azadlıq uğrunda mübarizəyə həsr olunan sənədli və bədii filmlərin, tamaşaların nümayişi də nəzərdə tutulub.

Tədbirlər planına əsasən, Goranboy rayonu İcra Hakimiyyəti ilə birlikdə "Xocalı qisasa çağırır bizi" devizi altında faciə qurbanlarının və "Qızıl ulduzlu qəhrəmanlarımız" silsiləsindən Beyləqan rayonundan olan Azərbaycanın Milli qəhrəmanlarının xatirəsinə həsr edilən anma mərasimləri təşkil olunacaq.




Bundan əlavə, şəxsi heyət Xətai rayonunda, Goranboy rayon mərkəzində və Ağcakənd qəsəbəsində, eləcə də respublikanın digər şəhər və rayonlarında Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidələri ziyarət edəcəkdir.

Fevralın 26-da saat 17.00-da Müdafiə Nazirliyinin tabeliyində olan bütün birlik, birləşmə, hərbi hissə, idarə, təşkilat və xüsusi təyinatlı hərbi təhsil müəssisələrində Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad ediləcək, dövlət bayraqları endiriləcəkdir.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

*Əməkdaşımız ezamiyyətdən qayıdıb*

# Dağlarla çiyin-çiyinə

***Düşmənlə çox yaxın məsafədə yerləşən, dağlarla əhatələnmiş hərbi hissənin keçdiyi şanlı döyüş yolunun tarixini vərəqləyirəm: "N" hərbi hissəsi 1 fevral 1992-ci il tarixdə Azərbaycan Respublikası Müdafiə nazirinin əmrilə yaradılıb. Hərbi hissənin şəxsi heyəti ilk gündən rayonun müdafiəsində qəhrəmanlıq nümunələri göstərib, düşmənin yüzlərlə canlı qüvvəsini, hərbi texnikasını məhv edib. Onlar Tovuz rayonunun Əlibəyli, Koxanəbi, Əsrik-Cırdaxan və digər sərhəd kəndləri uğrunda düşmənə ağır zərbələr vuraraq mətanətlə döyüşüb, indi də döyüşür.***



100-dən çox döyüşçü Vətən uğrunda canından keçərək şəhid olub. Onların adı hərbi hissənin şərəf tarixinə qızıl hərflərlə həkk edilib. Çavuş Qasım Rzayev və əsgər Naiq Yusifov (hər ikisi ölümündən sonra) "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. 2 hərbi qulluqçu isə Azərbaycan bayrağı ordeni ilə təltif olunub.

Həmsöhbətim hərbi hissənin şəxsi heyətlə iş üzrə cavabdeh zabit Emin Vəliyev əminliklə vurğulayır ki, bu gün də hərbi hissənin şəxsi heyəti tarixi qəhrəmanlıq ənənələrinə sadiqdir. "Düşmən tapdağında olan torpaqlarımızı azad etməyə qadir olan döyüşçülərimiz Ali Baş Komandanın əmrinə hər an hazırdırlar. Nə şaxta, nə boran qorxutmur onları. Əksinə, daha da möhkəmlənir, düşmənə qarşı amansız və sərtdirlər. Düşmən sutka ərzində mövqelərimizi bir neçə dəfə pozur. İriçaplı pulemyotlardan atəşə tutur. Silahlı Qüvvələrimizin bölmələri tərəfindən düşmənin atəş nöqtələri susdurulur. Sərhəddə yerləşən mövqelərimiz Silahlı Qüvvələrimizin nəzarətindədir", - zabit söhbətində ordumuzun müdafiə qüdrətindən, hazırda Silahlı Qüvvələrimizin müasir silah və texnikalarla təminatından danışır.

Hava şəraiti əlverişsiz olsa da, ön xəttə getmək istəyimi bildirirəm.

Sürücü Müşfiq Tağılı maşını çox ehtiyatla idarə edir. O, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusudur. Öyrənirəm ki, bu dağların hər qarışına bələddir. Müşfiq üçün bu yerlərdə çətin, keçilməz yol yoxdur.

Düşmənlə sərhəd kəndlərdə yaşayan sakinlərlə də söhbət edirəm. Kənd sakinlərindən Əhməd Əfkərov, Kamandar Əsgərov, Əlabbas Tağıyev və Xanlar Həsənov bildirirlər ki, ordumuzun gücünə arxayındırlar. "Ona görə də evimizdə rahat yaşayırıq. Uşaqlar məktəbə, bağçaya gedirlər. Biz də gündüzlər təsərrüfatımızda işləyirik. Gündəlik qayğılarımızla məşğul oluruq. Təhlükəsizliyimizi təmin edən hərbçilərimizə cansağlığı arzu edirik. Onlar bizim sakit həyatımızı yaratmaq üçün bu dağlarda gecə-gündüz keşik çəkirlər. Bəzən kəndləri, evləri, əkin-biçin sahələrini atəşə tutan düşmənin silahlı bölmələrinə ordumuzun cəsur hərbçiləri elə cavab zərbələri endirirlər ki, uzun müddət qorxularından səsləri çıxmır".

Vətənpərvər hərbçilərimizin sayəsində güclü müdafiə olunduqlarını bildirən kənd sakinləri ordumuzun qüdrətindən fəxrlə danışır, Silahlı Qüvvələrimizdə müasir texnika və silahların olmasını alqışlayırlar.

Döyüş növbəsi çəkən əsgər Fərid Quliyevi nə soyuq, nə sazaq qorxutmur. Fərid 10 aydır ki, Bakı şəhəri Yasamal rayonundan hərbi xidmətə çağırılıb. 234 saylı məktəbi bitirib. Hərbi xidmətini başa vurduqdan sonra ali təhsil almaq arzusundadır. Komandirlərinin tapşırıqlarını vaxtlı-vaxtında yerinə yetirən Fərid bizə ön xətdə - çətin dağ şəraitində xidmət keçməyin nə qədər şərəfli olduğunu söyləyir.

Fəridə bu şərəfli xidmətində uğurlar diləyib, döyüş növbəsi çəkən əsgər Vüsal Həsənovla söhbətimi davam etdirirəm. Öyrənirəm ki, Vüsal Azərbaycan Müəllimlər Universitetinin məzunudur. Tarix və coğrafiya fənləri üzrə ixtisaslaşıb. Bu gün ön xətdə Vətənə övladlıq borcunu yerinə yetirməkdən qürur hissi keçirdiyini deyən Vüsal Bakı şəhəri Yasamal rayonundakı general Akim Abbasov adına 158 saylı məktəbin məzunu olmasından, silahının taktiki-texniki xüsusiyyətlərini mükəmməl öyrənməsindən və döyüş növbəsində baş verən yaddaqalan hadisələrdən söhbət açır.

Bütün çətinliklərə mərdliklə sinə gərir, düşməni gözündən qoymur. O deyir ki, xalqımız dəfələrlə erməni vəhşiliklərinə tuş gəlib. "Biz bu tariximizi - qan yaddaşımızı unutmamalı, o səhifələri təkrar-təkrar vərəqləməliyik. Gələcək nəsillərə ötürməliyik ki, qoy onlar da ata-babalarının düşməni kim olduğunu bilsinlər".

Zabit Emin Vəliyev bizə deyir ki, burada axşam saat 5-ə yaxın yollar tamam buz bağlayır, təhlükəli vəziyyət yaranır. Ona görə də yubanmadan geri dönməyə tələsməliyik.

Dağlarda güclü müdafiə istehkamı quran müqəddəs peşə sahibləri - hərbçilərimiz Vətən torpaqlarının keşiyində ayıq-sayıq dayanıb döyüş əmrinə hazırdırlar.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Göyəzən dağının ətəklərində



Qazax əhlinin müqəddəs bildiyi Göyəzən dağını Kiçik Qafqazın fərqli dağlarından hesab etmək olar. Burada Göyəzəni başqası ilə birləşdirəcək ikinci dağ silsiləsi yoxdur və sanki bir hündür qaya kimi düzün ortasında bitib. Onun bu cür tənhalığına və əzəmətinə görə ta qədimdən üzü bu yana çoxlu rəvayətlər, əsatirlər dolaşmaqdadır. Dağın adındakı hərfi məna da (Göyəzən - göyə yüksələn, ucalan deməkdir) quruluşunu tamamlayır. Xalqımızın böyük şairi, söz ustadımız Səməd Vurğun "Yadima düşdü" şeiri ilə Göyəzən dağını çox gözəl vəsf etmişdi.

*Göylərə baş çəkir*
*Göyəzən dağı...*

deməklə şair təbiətin yaratdığını obrazlı təsvir edib. Bir maraqlı məqam da orasındadır ki, Göyəzən dağı ilə bizə düşmən kəsilən ermənilərin mövqelərinə olan məsafə, bəlkə də, min metr deyil. Müharibənin o qanlı-qadalı illərində qazaxlılar bu dağın düşmən əlinə keçməməsi üçün qətiyyətli müdafiə qurdular, kəskin mübarizə aparıb ona bu yerlərə ayaq açmağa imkan vermədilər. Elə o dövrdən qurulan istehkamlara ermənilər dəfələrlə hücuma cəhd etsələr də, yenə ordumuzun qətiyyətli mövqeyi onu geri çəkilməyə məcbur edib.

Yol yoldaşım çoxdan tanıdığım zabit Elmar Zeynalabdinov neçə ildir ki, cəbhə bölgəsində xidmət edir. O, bölmələrin müdafiə olunduqları əraziyə və onun yaxın keçmişinə yaxşı bələddir. Deyir ki, vaxtilə bu yerlərdə top, qrad mərmiləri partlayanda, avtomat və pulemyotların lüləsindən od töküləndə, Qazax elinin cəngavər oğulları bu yerləri qanı-canı bahasına qoruyublar. Bu gün də ordumuz tərəfindən bütün mövqelər yağılardan qətiyyətlə müdafiə edilir.

...Bir qədər aralıda yüksəklikdə döyüş postumuz görünür. Çox keçmədi, nahamar yolla döyüşçülərimizin məskən saldıqları yerə çatdıq. Əsgərlərimizi düşmən güllələrindən bu səngərlər qoruyur. Blindajdan bir neçə istiqamətə səngər şaxələnir. Hər səngər döyüşçünü düşməndən təhlükə gözlənilən səmtə aparır. Hər səngərin silaha uyğun öz atəş sektoru var: örtülü və davamlı atəş mövqeyi, pulemyot, qumbaraatan və başqa atıcı silahlar üçün hazırlanmış səngərləri görəndə düşünürəm ki, düşmən heç vaxt istəyinə çata bilməz.

Gizir Samir Məmmədov döyüş postunda bizi qarşıladı. O, gecə-gündüz demədən səngərdə xidmət edir, əsgərlərin müşahidə növbəsinə çıxmasına nəzarət edir, bir sözlə, manqanın dayaq məntəqəsinə cavabdehlik daşıyır. Samir üç ildən artıqdır ki, əsgərləri ilə bu yerlərin keşiyində dayanır. Post böyüyü ilə qısa söhbətdən məlum olur ki, o da müharibənin ən çox acısını çəkən kəndlərdən birindəndir. İlham, Pənah, Adil və daha neçə döyüşçünü yetirmiş Cəmilli düşmən mövqelərinə yaxındı.

Burada xidmət edən digər əsgərləri də yaxından tanımaq istəyirəm. Nə xoşdur ki, bunların hər biri Vətənimizin bir bölgəsindəndir. Onlar torpaqlarımızın keşiyində hər zaman ayıq-sayıq dayanırlar. Görüşdüyüm bu əsgərlərdən Xəyal Əliyev Cəlilabaddan, Ülvi Məmmədzadə Bakıdan, Samir Babayev Salyandan, Novruz Məmmədov Masallıdan, Həsən Aydınov Xaçmazdan, Taleh Əliyev Saatlıdan, Natiq Kərimli isə Lənkərandandır. Onların hərbi xidmətə gəlmə vaxtları da müxtəlifdir. Burada əsgərlərin üzərinə düşən vəzifələr bərabər bölünür.

Gizir S.Məmmədov deyir ki, postda olan əsgərlər həmişə bir-birilərinə arxa, dayaq olmağa çalışırlar. Burada onların əsas tapşırığı düşmən hücumunun qarşısını almaqdır. Bu vəzifənin də öhdəsindən bacarıqla gəlirlər.

...Postda döyüşçülərlə görüşdən ayrılıb növbəti mövqeyə yola düşürük. Qarşımızda isə əzəmətli Göyəzən dağı dayanıb. Sanki bu dağ da bizlərə ruh verir, deyir ki, düşmənə aman vermə.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

*Valideyn sözü*

# Ordumuza inanırıq

***Mən müəlliməm. Neçə illərdi orta məktəbdə tarix fənnini tədris edirəm. Bilirəm ki, tərbiyə prosesi məktəblə ailənin qarşılıqlı fəaliyyətinin nəticəsidir. Uşağa, yeniyetməyə məktəbin bir, ailənin başqa tələbi varsa, cəmiyyət üçün gərəkli vətəndaş tərbiyə etmək çətin olur.***



Müəllim kimi şagirdlərimin timsalında balalarımı, balalarımın timsalında şagirdlərimi görürəm. Oğlumdan tələb etdiklərimi şagirdlərimdən də tələb edirəm.

Müəllim olaraq fənnin proqram materiallarını tədris etməklə kifayətlənmək düzgün deyil. Hər bir müəllim şagirdlərinin mənəvi dünyasının cəfakeşi olmalıdır. Unutmamalıdır ki, o, cəmiyyətin sahibinin, vətəndaşların xarakterinin formalaşmasına məsuldur. Mən şagirdlərimlə müxtəlif mövzularda söhbətlər aparıram. Başlıca mövzu Vətən olur, torpaq olur, xalqımızın tarixi keşmişi olur. Təbii ki, müharibələr tarixindən, müharibələrin qəhrəmanlarından da danışıram. Bunlar isə özlüyündə şagirdlərin vətənpərvərlik duyğularını daha da artırır. Vətənin nə olduğunu bilməyən gənc onu necə sevə bilər? Gənc Vətənin dağını-düzünü də sevməlidi, gülünü-çiçəyini də, kəhrizini-bulağını da, boz çölünü də, çəmənzarını da, meşələrini də. Bunlar kifayət eləmir. Xalqın, millətin tarixini mükəmməl mənimsəməlidir ki, məqamında o tarixin heysiyyatının daşıyıcısı olmağı bacarsın.

Böyüməkdə olan nəslin vətənpərvərlik tərbiyəsinin formalaşması olduqca incə məsələdir. Bu, biz müəllimlərin təkcə vəzifəsi deyil, həm də yerinə yetirməli olduğu vətəndaşlıq borcudur.

Ordumuz haqqında veriliş gedirdi. Ata-bala maraqla baxırdıq. Əsgərlərin nizami yerişi ikimizə də könül xoşluğu verirdi. Gözaltı oğluma baxdım. Gözlərini ekrandan ayırmırdı.

Mən oğlumu bu ruhda böyütmüşəm. İndi hərbi xidmətdədir. Zamanında şagirdlərimin xoş sorağını eşidirdim, inanıram ki, oğlum da nümunəvi xidmətiylə məni sevindirəcək.

Ordumuz Cənubi Qafqazda ən güclü ordudur. Torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Belə bir ordunun əsgəri olmaqla digərləri kimi oğlumun da fəxr eləməsi təbiidir. Bu, ata kimi mənə qədərsiz könül xoşluğu verir.

Ata kimi oğlumun əsgər olması mənim ömrümə ömür calayır. Əsgərlərin hamısını oğluma qardaş bilirəm. İnanıram ki, bu oğullar Ali Baş Komandanın əmrinə müntəzirdirlər. Mənim oğlum da onların sırasında...

**Nizami DÖVRÜŞOV,**
**əsgər atası,**
**Zərdab rayonu**

*Vətənpərvərlik*

# Şəhidlərimizin arzularını biz gerçəkləşdirəcəyik!

***İnternet səhifələrindən birində qarşılaşdığım "Balaca igidlər" şəkli çox düşündürücüdü. Qürurlandırdı məni: hərbi forma geyinmiş iki azyaşlı əllərində qərənfil Şəhidlər xiyabanını ziyarət edir. Şəkil mənə uşaqlıq illərimi xatırlatdı...***

Mən də əynimə böyük olsa da, atamın hərbi mundirini geyinərdim, elə bilərdim əsgərəm. Atam müharibədən, ermənilərdən, Vətəndən, cəbhədən söz açardı. Hərbiyə olan marağımı bildiyi üçün mənə oyuncaq silahlar alardı. Onun sözlərinə görə, məşhur siyasətçi Uinston Çörçil balaca əsgər oyuncaqları ilə oynamağı sevərmiş. Evində müxtəlif orduların əsgər oyuncaqları varmış, gününü o oyuncaqlarla keçirərmiş. "Sən də böyüyəndə hərbçi olacaqsan, oğlum", - deyərdi atam.

Bu şəkil adi şəkil deyil. Uşaqların düşüncələrinin təsdiqidi. Həm də zamanında tarix yazmış bir xalqın sabahkı tarixini yazacaq insanları tanıdır bizlərə - bizi sevənlərə də, sevməyənlərə də. Hərbi mundirli iki azyaşlı uşaq şəhidlərimizin ruhuna ehtiram kimi Şəhidlər xiyabanına əllərində qərənfillərlə gəlib. Varlığım qədər inanıram ki, ürəklərinin hökmüylə gəliblər. İki balaca yurdsevərin Vətən, xalq, millət, şəhid məfhumlarını dərk etməsindən necə qürurlanmayasan?!



Onlar dərk edirlər ki, mənən yaşayan şəhidlərin canı-qanı hesabına qorunur Vətən. Fəxrlə geyindikləri hərbi mundir də, o azyaşların sərt baxışları da düşmənə göz dağı olduqlarını deyir, bizə düşmən kəsilən erməniyə ismarıcdı: "Mən də böyüyəcəm, gələcəyin əsgəri olacam..."

Balacaların əllərindəki qərənfillər, üzlərindəki qürur şəhidlərimizi nə qədər hörmət və ehtiamla yad etdiklərini göstərir. "Azərbaycanı böyüyəndə biz qoruyacağıq!" - deyirlər sanki...

Gələcəyin əsgərlərinin gözlərindəki qüruru, bir o qədər də qəzəbi bir cümlə ilə ifadə etmək olar. "Qürurluyuq, şəhidlərimizin arzularını biz gerçəkləşdirəcəyik!.."

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

Ordu və cəmiyyət

# “Səngər dostluğunu müqəddəs bilirəm”

***1992-1994-cü illərdə "Xalq Ordusu" (indiki "Azərbaycan Ordusu") qəzetində cəbhə bölgələrindən gələn informasiyalar əslində, müharibənin tarixi idi. Həmin məlumatları redaksiyaya operativ çatdıranlardan biri də hərbi müxbir - baş leytenant Əbülfət Mədət oğlu Əliyev idi...***



***- Əbülfət müəllim, söhbətə başlamazdan əvvəl özünüz barədə qısa məlumat versəniz yaxşı olardı.***

- Öncə məni yada saldığınız üçün sizə və qəzetinizin kollektivinə, rəhbərliyinə təşəkkürümü bildirirəm. 1959-cu ilin il yanvarın 1-də Dağlıq Qarabağın Xocavənd rayonunun (keçmiş Hadrut) məşhur Tuğ kəndində dünyaya göz açmışam. Sovet ordusunda xidmət etmişəm. Bakı Dövlət Universitetini bitirmişəm. 1980-ci illərdən müxtəlif mətbuat orqanlarında çap olunmağa başlamışam. Xeyli sayda kitablarım işıq üzü görüb. Əməkdar jurnalistəm. Hazırda "Ədalət" qəzetində baş redaktorun birinci müavini vəzifəsində çalışıram. Azərbaycan Yazıçılar Birliyinin, Azərbaycan Jurnalistlər Birliyinin və Avrasiya Yazarlar Birliyinin üzvüyəm. Kitablarım Türkiyədə və İranda nəşr olunub. Bu günlərdə "Ürəyim sənlə danışır" adlı şeirlər kitabımla oxucuların görüşünə gəlmişəm.

***- "Azərbaycan Ordusu" qəzetinin ilk zona müxbiri olmusunuz. Həmin vaxt işi necə qurmuşdunuz, o vaxtlar nümunə yox idi axı?..***

- Azərbaycanda Müdafiə Nazirliyi strukturu yaranandan dərhal sonra "Xalq Ordusu" - bugünkü "Azərbaycan Ordusu" qəzeti nəşrə başladı. Həmin vaxtlar mən Dağlıq Qarabağda fəaliyyət göstərən qurumda çalışırdım. Qəzetin yarandığını eşidən kimi baş redaktora müraciət edib, məqsədimi ona bildirdim. Sağ olsun, o da anlayışla qarşıladı və dərhal ərizəylə Hərbi Komissarlığa müraciət etdim. Mən onda bugünkü Səbail rayon Hərbi Komissarlığında qeydiyyatda idim. Ərizəmi nəzərə alıb məni ehtiyatdan həqiqi hərbi xidmətə çağırdılar və hərbi jurnalist kimi qəzetin Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Şuşa bölgələri üzrə zona müxbiri təyin edildim. Müdafiə nazirinin əmri ilə hərbi formada, tabel silahım qoburda, qələm-dəftərim, diktafonum üstümdə bölgəyə yollandım. İlk işim onsuz da əvvəldən bələd olduğum və bir çoxunu yaxından tanıdığım hərbi hissələrə baş çəkmək, komandirlərə kimliyimi bildirmək, onlarla əlaqə saxlamaq üçün müəyyən çağırış parollarını öyrənmək oldu. Məhz həmin çağırışlar vasitəsilə mən istənilən hərbi hissə ilə əlaqə saxlayır, lazımi məlumatları əldə edirdim. Etiraf edim ki, işlədiyim müddətdə günüm gah maşınların banlarında, gah kabinələrində, gah da dost-tanışların avtomobillərində keçib. İşim çox olsa da, yorulmurdum. Yenicə yaranmaqda olan orduda sözə, mətbuata, jurnalistə olan ehtiyac məni yorulmağa qoymurdu. Hamı məni xüsusi bir maraqla qarşılayırdı.

***- İlk dəfə hansı bölgəyə getdiniz? Zabit və əsgərlərlə ilk görüşünüz hansı döyüşdə oldu?***

- İlk səfərim Füzuliyə oldu. Bunun da əsas səbəbi o idi ki, burada hərbi hissələrin komandir heyətini də tanıyırdım, döyüşçülərin əksəriyyətini də. Özünümüdafiə dəstələrindən də xəbərdar idim, qərargaha rəhbərlik edən rəsmi nümayəndələrlə də əlaqəm var idi.

***- Ön xətdə çox olmusunuz. Bilavasitə döyüşlərdə iştirak etmisinizmi?***

- Bu sualın cavabını xırdalasam, yəqin ki, sanballı bir kitab alınar. Sadəcə onu deyim ki, evi, kəndi hər gün gülləbaran edilən, üstəlik, özü də hərbi forma geyinmiş bir Azərbaycan vətəndaşı kimi barıtın qoxusunu da, səngərin soyuğunu da, şəhid qanını da kifayət qədər görmüşəm.

***- Kəndlərimizin işğalı ilə bağlı kədərə, qəmə köklənmiş yazılarınız var. Yəqin qələmimizin sevindiyi gün də olar, inşallah...***

- Mənim üçün bu çox duyğusal sualdır. Söylədiyiniz fikir mənim içimdə hər gün diridi və o ümidin ölməsinə heç vaxt imkan verməyəcəm.

***- O gərgin günlərdə yazıları necə, hansı şəraitdə yazırdınız? Hərbi qəzetdə işləmək sizə daha hansı vərdişləri aşıladı?***

- "Xalq Ordusu" qəzetinə bir də ona görə minnətdaram ki, o mənə xəbərləri birnəfəsə diktə etməyi öyrətdi. Əgər qəzetin 90-cı illər nüsxələrinə baxsanız, onda birinci səhifədə bir sütun görəcəksiniz. Həmin sütunun baş tərəfində yazılıb: baş leytenant Əbülfət Mədətoğlu xəbər verir - Ağdamdan, Füzulidən, Cəbrayıldan... və bu xəbərlərin hamısını redaksiyaya birbaşa telefonla diktə edirdim. Hətta bəzən gecə saat 10-da, 11-də günün son döyüş xəbərini də çatdırırdım. Uğurlu əməliyyatlar barədə informasiya verəndə sevincdən dilim dolaşardı. Böyük həcmli yazıları isə ya nazirliyə gələn hərbçilərlə göndərirdim, ya da Bakıya gedən sürücülərə verirdim, onlar da həmkarlarımdan birinə, əsasən qəzetin məsul katibi Rəşid Faxralıya çatdırırdılar. Yazı masam isə gecələdiyim fərqli ünvanların bir küncü olardı.

***- Müharibə hələ bitməyib, deməli, hər an döyüşə hazır olmalıyıq.***

- Bu sualınıza Sovet dövrünün bir pioner salamıyla cavab versəm, yəqin ki, etiraz etməzsiniz. Xatırlayırsınızsa, pionerlər deyirdilər ki, "həmişə hazıram!".

***- Zabit və əsgərlərə sözünüz, arzunuz...***

- Mən bu müharibədə çoxlu dost da qazandım, dostlarım arasında şəhidlər də oldu. Üstəlik, səngərdə tanıdığım o vaxtkı kiçik rütbəli zabitlərin bir çoxu bu gün birlik, hərbi hissə komandiridi, generaldı, Milli Qəhrəmandı. İmkan düşdükcə onlarla səngərdə keçən günlərdəki kimi görüşürəm. Səngər dostluğunu müqəddəs bilirəm. Çünki burada kişi kişiyə güvənir, kişi kişiyə inanır, həyatını etibar edir. Ona görə də ordumuzun bütün əsgər və zabitlərinə bir-birinə güvənməyi arzu edərdim. Belə olanda torpağı azad etmək daha asan və Qələbə sevincini yaşamaq da mümkün olacaq!

***- Müsahibəyə görə çox sağ olun!***

**Söhbətləşdi:**
**mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# “Atəşkəs” sənədli filmi Azərbaycan dilində ilk dəfə nümayiş olunub

***Macarıstanlı rejissor Erik Boqnarın Qarabağ həqiqətlərindən bəhs edən "Atəşkəs" sənədli filmi fevralın 17-də Nizami Kino Mərkəzində Azərbaycan dilində ilk dəfə nümayiş olunub.***




Ekran əsərinin çəkilişi Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə Macar Turan Fondu və Beynəlxalq Avrasiya Mətbuat Fondu (BAMF) tərəfindən reallaşdırılıb. Filmin təqdimat mərasimində Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, Milli Məclisin deputatları, diplomatik korpusun nümayəndələri, tanınmış elm və mədəniyyət xadimləri, ictimaiyyət və media nümayəndələri iştirak ediblər.

Qarabağ həqiqətlərindən bəhs edən filmdə Azərbaycanın müasir tarixinə dair faktlar, eləcə də işğal nəticəsində doğma yurdlarından köçkün düşən insanların acı həyatı əksini tapıb. Filmə işğaldan əvvəl Dağlıq Qarabağda yaşayan azərbaycanlıların həyat tərzindən, Şuşada keçirilən toy mərasimlərindən ilk dəfə olaraq unikal kadrlar daxil edilib. Ekran əsərində macar, alman, fransız, amerikan ekspertlərinin münaqişənin həlli ilə bağlı fikir və rəyləri, həmçinin bu hadisələrin canlı şahidlərinin ifadələri yer alıb.

Böyük maraqla qarşılanan filmin təqdimatından sonra Macar Turan Fondunun sədri Andros Biro, Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının sədri, Milli Məclisin deputatı Azay Quliyev çıxış etmişlər.

Filmin ərsəyə gəlməsində əməyi olanlara minnətdarlığını bildirən Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov ekran əsərinin əhəmiyyətindən danışıb, yaradıcı kollektivin real həqiqətlərə söykənən sülhə çağırış ideyasını yüksək qiymətləndirib.

Sonda filmin hazırlanmasında xüsusi əməyi olan Macar Turan Fondunun sədri Andros Biroya və BAMF-ın sədri Umud Mirzəyevə Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının diplomları təqdim olunub.

**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Ankarada terror aktı nəticəsində həlak olanların sayı 28-ə çatıb



Fevralın 17-də axşam saatlarında Ankarada terror aktı törədilib.

Partlayıcı qoyulmuş avtomobil hərbçiləri daşıyan maşın karvanının keçdiyi küçədə partladılıb. Türkiyə Baş nazirinin müavini Numan Kurtulmuş terror aktı ilə əlaqədar verdiyi açıqlamada həlak olanların sayının 28-ə çatdığını bildirərək deyib: "Təəssüf ki, hazırda 28 vətəndaşımız həlak olub. Vəfat edənlər arasında əsgərlərlə yanaşı, mülki şəxslərin də olduğunu ehtimal edirik. Bu terror aktının törədilməsində kimin əli olduğunu ortaya çıxaracağıq".

N.Kurtulmuş bildirib ki, bu, Türkiyə millətinə qarşı açıq, xaincəsinə edilən hücumdur.

### İran-Rusiya hərbi əlaqələri müzakirə olunub



İran İslam Respublikasının müdafiə naziri general Hüseyn Dehqan Rusiyaya səfəri çərçivəsində Prezident Vladimir Putinlə görüşüb. İran mətbuatı yazır ki, görüşdə regiondakı hərbi-siyasi vəziyyətlə yanaşı, Rusiyadan yeni raketlərin alınması məsələsi də müzakirə edilib. Söhbət zamanı İran-Rusiya əməkdaşlığının genişləndirilməsi perspektivi də nəzərdən keçirilib.

Görüşdən sonra həm nazir H.Dehqan, həm də Prezident V.Putin Suriya probleminin həlli yolunun yalnız siyasi danışıqlarla mümkünlüyünü qeyd ediblər. Bir daha bildirilib ki, Suriya məsələsində hər iki dövlət vahid mövqedən çıxış edəcək.

### Yaponiya reaktiv sərnişin təyyarəsinin satışı ilə bağlı ilk sazişi imzalayıb



Yaponiyanın "Mitsubishi Aircraft" şirkəti "Mitsubishi Regional Jet" reaktiv sərnişin təyyarəsinin satışı ilə bağlı ilk sazişi imzalayıb. Yaponiyada yaradılan təyyarələrin 20 ədədi 2018-ci ildə ABŞ-ın Florida ştatında yerləşən "Aerolease Aviation" şirkətinə təhvil veriləcək.

Qeyd edək ki, "Mitsubishi Regional Jet" ilk sınaq uçuşunu noyabrın 11-də həyata keçirib.

### “Apple” Hindistanda yeni ofisini istifadəyə verəcək



"Apple" şirkəti Hindistanda yeni ofisinin açılışına 25 milyon dollar sərmayə yatırıb.

Şirkətin 23 min kvadrat metrlik ərazini əhatə edəcək yeni ofisi Hindistanın Heydərabad şəhərində açılacaq və burada 4500 insan işlə təmin olunacaq. "Apple" Hindistanda smartfon bazarının 2 faizini tutur. Ötən ilin sonunda iPhone satışı 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 76 faiz artıb.

### Norveçin enerji şirkəti “Statoil” alternativ enerji mənbələrinin inkişafına xidmət edəcək 200 milyon dollarlıq fond yaradıb




Neft və qaz portfelini gəlirli alternativ enerji mənbələri və ucuz karbon texnologiyaları ilə tamamlamaq istəyən "Statoil" 200 milyon dollarlıq yeni fond təsis edib. Şirkət 4-7 illik dövrdə külək və günəş elektrik stansiyaları, enerji saxlama, nəqletmə, səmərəli və ağıllı şəbəkə xətləri kimi sahələrə investisiya yönəldəcək.

**AZƏRTAC-ın materialları əsasında**

Könlüm şeir istəyir

# Poeziyamızın sönməz işığı



*Xəlil Rza Ulutürk XX əsr Azərbaycan poeziyasının mübarizə simvolu idi. Onun şeirləri xalqın minillik tarixindən süzülüb gələn ideyalar səyyarəsidi sanki. Bütün yaradıcılığı boyu şeirləri milli müstəqillik, milli azadlıq hərəkatının, azərbaycançılıq ideologiyasının cəfakeşi olub. Xalq şairi Bəxtiyar Vahabzadə onun yaradıcılığını "poeziya alovu" adlandırırdı: "Xəlil Rza yaradıcılığında mərdlik, bahadırlıq pafosu, cəngavərlik əzmi həmişə güclü olub. Onun lirik qəhrəmanının bu cəhətləri son illərdə həm də səbr, dözüm, daxili təmkin, özünə inam və fəlsəfi idrak kimi keyfiyyətlərlə zənginləşmişdir".*

Xəlil Rza Ulutürk milli müstəqillik uğrunda poetik mücadilə və mübarizə təbliğatçısı deyildi, həm də onun ideya daşıyıcısı idi.

"Sevdiyim sənətkara" şeirindən bir misranı xatırlayıram: "Bil ki, əsl şeir can məşəlidir"; Xəlil Rza Ulutürk şeiri məşələ çevirdi. Vətəni varlığıyla sevən, azərbaycançılığı yaradıcılığının başlıca qayələrindən bilən şairin "Meyar" şeirini vətənpərvərliyi şərtləndirən tezislərin poetik ülgüsü hesab etmək olar.

*Tutaq ki, var istedadın,*
*İlhamın da, biliyin də...*
*Rədd ol! İtil gözlərimdən*
*Əgər yoxsa Vətən eşqi*
*Sümüyündə, iliyində.*

Bəxtiyar Vahabzadə Xəlil Rzanın "Afrikanın səsi" (orijinalda "Azadlıq") şeirini bədii kəşf adlandırıb. Bu şeir bütövlükdə Azərbaycanın səsi idi. Onu Xəlil Rza Ulutürkün yaradıcılığının epiqrafı adlandırmaq günah deyil. Bu səbəbdən də böyük şair deyirdi ki, Xəlil Rza Ulutürk "millət Məcnunudu".

Vətənpərvərliyin, vətəndaşlığın qayəsi poetik biçimdə "Kentavr", "Vətən", "Mən nəyəm ki, ey Vətən", "Ayağa qalx, Azərbaycan", ... kimi şeirlərində yüksək bədii dəyərlərlə verilib.

Şair Hidayət "Xəlil Rza" şeirində yazır:

*Qazan xanın mərd əlini sıxıb gəlib*
*Lefortovo zindanını yıxıb gəlib!*
*Sillə olub hər yaltağa, hər qorxağa,*
*Günəş olub qoca qışa, son payıza*
*Xəlil Rza!*

Xəlil Rza Ulutürk adlı poeziya işığı bəşəriyyətin çığırdaşıdı.

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

## Ana dilim
(ixtisarla)

…Məhv olarsa bir gün bu dil,
Göygöl onda Göygöl deyil.
Qoşqar onda Qoşqar deyil.
Qız qalası qala deyil.
Öz dilini sən qala bil!
Qərbə, Şərqə işıq salan
Füzulini sən qala bil!
Sağdır dilim, demək, sağdır
şərafətim, ləyaqətim.
Sağdır, demək,
milyard yaşlı məmləkətim.
Yüz hədəfə tuş etmişəm
Sabirin hər sətrini mən.
Salxım-salxım nuş etmişəm
şəhdini mən, ətrini mən.
Külək deyil, güllə açdı
Təbrizimin yaxasını.
Boğazından çıxartdılar
loxmasını.
Lakin yenə o yaşadı,
qoruyaraq
Möcüzün hər misrasını.
Mənim dilim məğrur baxmış
üzərindən gəlib keçmiş,
ürəyini dəlib keçmiş
oxların qanlı ucuna.
Baş əyməmiş fatehlərin
qol zoruna, dil zoruna,
qılıncına, qırmancına!
Baş əyməmiş! Baş əyməyir!..
Əyməyəcək!
Cabbarların türbəsinə
bahar özü qoyur çələng.
Ürəyimdə od qalamış
min-min arzum, əhdim mənim.
Bax, bu dildə "Hücum!" deyib
İtaliya dağlarında
dağ çəkmişdir faşistlərə
Mehdim mənim!
Bax, bu dildə şeir dedi
Səməd Vurğun hər obada.
Qucaq-qucaq gül gətirdi
gözəl qızlar o ustada.
Qəlbim-bahar şəlaləsi,
sevinc yığır, ah dağıdır.
Mənim dilim Göygöl, Xəzər,
mənim dilim Şahdağımdır!..

## Azadlıq

Azadlığı istəmirəm
Zərrə-zərrə, qram-qram!
Qolumdakı zəncirləri
qıram gərək!
Qıram! Qıram!
Azadlığı istəmirəm
Bir həb kimi, dərman kimi
İstəyirəm səma kimi,
Günəş kimi!
Cahan kimi!
Çəkil, çəkil, ey qəsbkar,
Mən bu yurdun gur səsiyəm,
Gərək deyil sısqa bulaq,
Mən ümmanlar təşnəsiyəm.

## "Füzulim qəmli neydi..."

Füzulim qəmli neydi,
O bir dəmi qara geydi?
Yarasına kimlər dəydi
O sahildə, bu sahildə.

Şəbi-hicran yanar canım,
Tökər qan çeşmi-giryanım,
Oyadar xəlqi əfqanım,
O sahildə, bu sahildə.

Nə həsrət, nə hicran olsun,
Vahid Azərbaycan olsun!
Qoy birləşsin bir can olsun
O sahil də, bu sahil də!

## Oğlum Təbrizə

Məqbərinə gül düzərəm,
Gülüm, Təbrizim, Təbrizim!
Doğrudanmı, səni tapdı
Ölüm, Təbrizim, Təbrizim?

Gözlərində nur, təbəssüm,
Üzünə söykənsin üzüm,
Həsrətinə nə cür dözüm,
Balam, Təbrizim, Təbrizim!

Köksünə qonub bahar
Məzar demə...Məzar-gülzar,
Bu sərgidir, ya laləzar
Laləm, Təbrizim, Təbrizim!

Getmə öpüm izlərindən,
Bükülməyən dizlərindən,
Qoy saçılsın gözlərimdən,
Selim, Təbrizim, Təbrizim!

Məzar qonşuların yüz-yüz
Namiq, Elşad, Aydın, Gündüz.
Yerdə qalmaz bu qan, sözsüz,
Zülüm, Təbrizim, Təbrizim!

Qanlı köksü dəlik-dəlik,
Xocalıda bir qəsir tik,
Bu cahanda həmişəlik
Qalan, Təbrizim, Təbrizim!

Sən tapınan - O tapınaq,
Cüt Təbrizi qovuşduraq,
Ey bəxtəvər, ey üzüağ,
Balam, Təbrizim, Təbrizim!

## Həyat düşüncələri

Sən elə bilmə ki, köçdüyüm zaman
Dünyadan bir yolluq köçəcəyəm mən.
Bir dəfə ölüncə, bəlkə min dəfə
Ölümü tapdayıb keçəcəyəm mən!

Bir gün öz yanında görməsən məni,
Çıx yaşıl bağlara, quşları dinlə!
Okean qüdrətli Araz nəhrini
Saxlamaq istəyən daşları dinlə!

Dinlə küləkləri, küləklərdəyəm!
Ürəklərdən soruş, ürəklərdəyəm!
Bütün ulduzlarda, bütün çaylarda,
Bütün güllərdəyəm, çiçəklərdəyəm!

Buludu şimşəklə parçalayaraq,
Zülməti nur ilə boğacağam mən!
Qərbdə ulduz kimi batsam,
Şərqə bax:
Şərqdən günəş kimi doğacağam mən!

Qanadlanacağam sənin yanına,
Qışla əlbəyaxa ilk bahar ilə.
Savalan dağının zirvələrindən
Qərbə, Şərqə düşən şüalar ilə!

## Anam ocaq qalayır

Ocağın üstünə əyilib başı,
Silir gözlərini hərdən, yaxşı bax.
Birdən od üstünə düşür göz yaşı,
Birdən alov tutub odlanır ocaq.
Biləyi çirməkli, əli oxlovlu,
Qaməti qocalmış çinarlar kimi.
Ananın birçəyi qarlı-qırovlu,
Bala gendən baxır günahkar kimi.
Fikir ver... alışıb yanan oduna
Bir vaxt ağac idi - bahar vüqarlı.
Mənim anam kimi boylu-buxunlu
Mənim anam kimi şirin nübarlı.
Anaya bənzəyir odun xilqəti,
Anaya bənzəyir bu yanan ocaq.
O da anam kimi aşkar, xəlvəti
Kül oluncayadək alovlanacaq!
Köksümdə qalanıb ocaq elə bil,
Baxıram... başıma dünya dolanır.
Ata ocağında yanan od deyil,
Ata ocağında analar yanır.

## Unutmayaq!

**1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:**

**Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.**
**Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.**
**Laçın (17 may 1992-ci il) - 1835 kv.km.**
**Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.**
**Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.**
**Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.**
**Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.**
**Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.**
**Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.**

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

## İdman

### "Azərreyl" və "Azəryol" klubları Azərbaycan Super Liqasında növbəti qələbələrini qazanıblar



Fevralın 17-də qadın voleybol komandaları arasında Azərbaycan Super Liqası yarışları çərçivəsində iki oyun keçirilib. Əvvəlcə Azərbaycan Voleybol Mərkəzində "Azərreyl" və "Gənclik" komandaları meydana çıxıb. Görüşdə "Azərreyl" komandası asan qələbə qazanıb - 3:0. Digər görüşdə isə yarışda müsabiqədən kənar çıxış edən Gürcüstanın "Tbilisi" komandası "Azəryol"u qəbul edib. Qarşılaşma Bakı təmsilçisinin 3:0 hesablı qələbəsi ilə yekunlaşıb.

### Sambo üzrə Bakı birinciliyinin qalibləri müəyyənləşib



Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) tərəfindən Hövsan Olimpiya İdman Kompleksində sambo üzrə Bakı birinciliyi keçirilib.

Birincilikdə 167 idmançı 13 çəki dərəcəsi üzrə mübarizə aparıb.

Birincilikdə Müşfiq Zeynalov (24 kq), Əli İsgəndərzadə (26 kq), Həsən Əhmədov (28 kq), Səid Qəmbərli (30 kq), Nicat İsmayılov (32 kq), Rza Əliyev (35 kq), Toğrul İbrahimov (38 kq), Məhəmməd Məmmədov (41 kq), Fərid Niyazov (45 kq), Tağı Adilov (49 kq), Rəvan İslamzadə (53 kq), Elşən Seyfullazadə (57 kq) və Orxan Məcidli (57 kq) qızıl medal qazanıblar.

### Gənclər arasında boks üzrə ölkə çempionatına yekun vurulub



Azərbaycan Boks Mərkəzində beş gün davam edən yarışda 200-ə yaxın idmançı gücünü sınayıb.

Yarışda Kənan Əliyev (49 kq, "Rabitə"), Ruslan Rüstəmov (52 kq, "Rabitə"), Seymur İsayev (56 kq, "Gilan"), Sərxan Əliyev (60 kq, Naxçıvan), Bəxtiyar Qazıbəyov (64 kq, "Rabitə"), Pərviz Quliyev (69 kq, "Rabitə"), Rasim Çobanlı (75 kq, Qəbələ), Elxan Əliyev (81 kq, "Gilan"), Şahin Musayev (91 kq, "Gilan") və Məhəmməd Abdullayev (91 kq-dan yuxarı, "Rabitə") fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Zəkizadə Zəki Qabil oğluna verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Məmmədov Hümbət Şamil oğluna 1999-cu ildə verilmiş müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Əbülfət QASIMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 99
Nüsxə 4700